**Yaşıl gələcəyi birlikdə quraq: COP29 - Yaşıl sabaha doğru**

"Planetimizin üzləşdiyi və bəşəriyyətin qarşısında duran ən böyük problemlərdən biri qlobal iqlim dəyişmələridir. Ötən əsrin 50-ci illərindən artıq planetimiz bu iqlim dəyişmələrinin böyük təsirlərinə məruz qalmağa başladı".

AZƏRTAC xəbər verir ki, bu fikirləri TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er bildirib. O bildirib ki, baş verən qlobal istiləşmə və onun yaratdığı böyük fəsadlar dünya ictimaiyyətində ən çox müzakirə edilən məsələlərə çevrildi.

"Bizdən öncəki nəsillərin həyatında sadəcə bir dəfə baş vermiş ekstremal iqlim dəyişmələri günümüzdə daha çox rast gəlinir. Qütblərdən tropiklərə qədər baş verən bu dəyişiklik bütün ekosistemi pozmaqla ciddi problemlərə yol açır. Hətta cüzi temperatur dəyişikliyi ətraf mühitdə dramatik istilik dalğaları yaradaraq quraqlıq, daşqınlar və meşə yanğınlarına səbəb olmaqla böyük fəsadlar törədə bilər. Bu, dünyamızın üzləşdiyi elə bir problemdir ki, yalnız insan irqini deyil, bizi əhatə edən təbiəti, flora və faunanı təhdid edir. Bir çox canlı növlərinin biomüxtəliflik böhranından əziyyət çəkdiyi bir zamanda iqlim dəyişmələri bu böhranı daha da şiddətləndirir. İqlim dəyişmələrinin törətdiyi nəticələr təbiətin oturuşmuş balansını pozaraq, canlıların ənənəvi yaşam tərzinə mənfi təsirini göstərir", - deyə o bildirib.

Baş katibin sözlərinə görə, dünyada ümumi temperaturun artması buzlaqların əriməsinə, okeanlarda su səviyyəsinin yüksəlməsinə səbəb olur. Bu çərçivədə, ada dövlətləri iqlim dəyişmələrinin təsirlərinə daha həssasdırlar:

"Su səviyyəsinin yüksəlməsi hazırda dünya xəritəsində gördüyümüz, qlobal ictimaiyyətin üzvü olan bir sıra ada dövlətlərin mövcudluğuna təhdid yaradaraq, onların tarixə qovuşmasına səbəb ola bilər. Qidamızı necə əldə etdiyimizdən tutmuş iqtisadiyyatımızın əsaslandığı sənayelərə qədər bizim həyat tərzimiz nisbətən sabit iqlim kontekstində inkişaf etmişdir. Baş verən bu ekoloji böhran bu bünövrəni sarsıdaraq cəmiyyətin quruluşunu dəyişdirəcəyini vəd edir. Dünya bizim ortaq evimizdir və yalnız bizim birgə səylərimiz onu xilas edə bilər. İqlim dəyişmələrinin qlobal miqyası və transsərhəd xarakteri bu çağırışların öhdəsindən gəlmək üçün qlobal səyləri zəruri edir. Qlobal ictimaiyyət daha təhlükəsiz, dayanıqlı və ədalətli yola doğru kollektiv addımlar atmaqla dünyamızı qoruya bilər. Atılacaq bu addımlar planetimiz üçün geri dönülməz nəticələrin qarşısını alaraq, onu xilas etmək deməkdir".

Mehmet Süreyya Er bildirib ki, bu ümumbəşəri problemi həll etmək üçün 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında 154 dövlət tərəfindən insanların iqlim sisteminə təhlükəli müdaxiləsi ilə mübarizə aparmaq üçün "İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası" imzalanıb. Çərçivə konvensiyasının əsas məqsədi atmosferdə istixana qazlarının konsentrasiyalarının iqlim sisteminə təhlükəli antropogen müdaxiləsinin qarşısını alacaq səviyyədə stabilləşməsidir.

"1997-ci ildə Yaponiyada imzalanmış və 2005-2020-ci illəri əhatə edən Kioto protokolu, 2016-cı ildə qüvvəyə minən Paris sazişi ilə əvəz olunmuşdur. 2022-ci ilə qədər Konvensiyanın 198 tərəfdarı var idi. Onun ali qərar qəbuledici orqanı olan Tərəflər Konfransı (COP) iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişi qiymətləndirmək üçün hər il toplanır. Çox təqdirəlayiqdir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) qurucu üzvlərindən olan Azərbaycanın ev sahibliyində keçirilir. Bu hadisə ilə əlaqədar bütün dünyanın gözü Azərbaycanda olacaqdır. COP29-un Azərbaycanda keçirilməsi yalnız qardaş Azərbaycan üçün deyil, bütün türk dünyası üçün əhəmiyyətli nailliyyətdir. Hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətin Azərbaycana göstərdiyi böyük etimadın təzahürü, Azərbaycanın qlobal problemlərin həllində göstərdiyi fəal səylərə verilən dəyərdir. 2024-cü ilin Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təbii ki, ətraf mühitə və ekoloji problemlərin həllinə verilən önəmin daha bir göstəricisidir", - deyə Mehmet Süreyya Er vurğulayıb.

Baş katibin sözlərinə görə, bir çox dövlətlər üçün Tərəflər Konfransında iştirak etmək əməkdaşlıq və təcrübə mübadiləsi imkanıdır ki, bu da onlara iqlim dəyişmələrinin təsirləri ilə, xüsusən də ona daha çox məruz qalan bölgələrdə daha sürətli və effektiv mübarizə aparmağa imkan verir. Bu münasibətlə Azərbaycanda dünyanın dövlət və hökumət başçıları, Tərəflər Konfransının nümayəndə heyətləri, Birləşmiş Millətlər Təşkilatının və əlaqədar təşkilatların rəhbərləri və ixtisaslaşmış qurumlar, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının rəhbərləri, dünya mediası və gənclər də daxil olmaqla, iqlim gündəliyinin geniş aktorlar dairəsi bir araya gələcəkdir:

"Beləliklə, iqlim dəyişmələri və onun nəticələri müxtəlif aspektlərdən müzakirə ediləcəkdir. Bakıda baş tutacaq BMT-nin İqlim Sammitinə sədrlik edəcək Azərbaycan iqlim dəyişmələrinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma rolunu oynayacaqdır. Əlbəttə, ali qanunverici orqanlar kimi parlamentlərin ekoloji problemlərə qarşı mübarizədə özünəməxsus yeri və rolu var. Türk əməkdaşlığının parlament ölçüsü, Türk dünyası parlamentlərinin ortaq səsi olaraq TÜRKPA öz gündəliyində ekoloji problemlərə geniş yer verərək, parlament diplomatiyasının gücündən və imkanlarından faydalanmaqla bu bəşəri əhəmiyyət kəsb edən məsələlərin həllində töhfəsini verməyə səy göstərir. 2024-cü ilin iyununda Bakıda baş tutmuş TÜRKPA-nın 13-cü Plenar İclası yaşıl gündəliyə həsr edilməsi ilə əlamətdar oldu. Azərbaycan Respublikası Milli Məclisinin ev sahibliyində "Türk dünyası üçün Yaşıl Üfüqlər: Yaşıl Gündəliyə nail olunmasında parlamentlərin rolu" mövzusunda keçirilmiş Plenar İclas zamanı regionda baş verən ekoloji proseslər və türk dünyasının yaşıl gündəliyi müzakirə edildi. Bu baxımdan, TÜRKPA-nın 13-cü Plenar İclası iqlim dəyişmələrinə qarşı mübarizədə qlobal səylərə fəal qoşulan ölkələr olaraq türk dövlətləri üçün bu sahədə mütərəqqi və gələcək yönümlü ideya mübadiləsi platforması kimi xidmət etmişdir. İqlim dəyişmələri tam proqnozlaşdıra bilməyəcəyimiz saysız ekoloji dəyişikliklər yaratmaqda davam edir. Bu dəyişikliklər bütün dövlətlərə, cəmiyyətlərə, hər birimizə təsir göstərir. Qlobal birliyin birgə hərəkət edərək həll edə bilməyəcəyi bir problem mövcud deyil. Bu mənada kollektiv səylər iqlim dəyişmələrinə qarşı mübarizədə ən effektiv vasitə kimi planetimizin təbii və ahəngdar sistemini qoruyub saxlayacaqdır.

Hər bir dövrün həmin dövrə xas ortaq qlobal vəzifələri olur. Bu gün bizim qarşımızda duran əsas vəzifələrdən biri iqlim dəyişmələrinin ekoloji tarazlığa vurduğu zərbələrin qarşısını almaq, iqlim dəyişmələrinə səbəb olan amilləri aradan qaldırmaq və gələcək nəsillərə sağlam ətraf mühit ötürməkdir. Bu, həm bizim gələcək nəsillər qarşısında vəzifəmiz, həm də onlara verə biləcəyimiz ən qiymətli sərvətdir.

Bu baxımdan, dünyada artan siyasi gərginlik, mürəkkəb geosiyasi proseslər və digər çağırışlar fonunda iqlim dəyişmələri qlobal gündəlikdə arxa plana keçməməlidir. Bu, birbaşa bizim həyatımız və gələcək mövcudluğumuz ilə bağlı məsələdir. Böyük siyasi iradənin birləşməsi bizə qoyulan hədəflərə çatmağa kömək edə bilər. Biz təbiətlə sülh bağlamaqla dünyanı xilas edə bilərik. Bu gün planetimizin bu həmrəyliyə ehtiyacı var.

Yaşıl dünya naminə həmrəy olaq, yaşıl gələcəyi birlikdə quraq!".

**AZƏRTAC**
**2024, 10 noyabr**